*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 16 avqust 2017-ci il | № 61 (2178) | Qiyməti 25 qəpik

## Azərbaycanın Müdafiə naziri "Beynəlxalq Ordu Oyunları-2017" yarışlarının bağlanış mərasimində iştirak edib



Moskva şəhərində səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov avqustun 12-də Alabino poliqonunda təşkil edilən "Beynəlxalq Ordu Oyunları-2017" yarışlarının təntənəli bağlanış mərasimində iştirak edib.

Yarışların son günü rəsmi qonaqlar final mərhələsinə çıxmış komandaların mübarizəsini izləyib və müxtəlif müsabiqələrdə qalib gəlmiş hərbi qulluqçuların mükafatlandırılmasında iştirak ediblər.

(Ardı 2-ci səhifədə)

## Sən qalib gələcəksən!

Ey Vətən, nə böyük qüdrətin var! Sənə görə oğulların nələr etməyib? Nələr etmir? Tarixin bizə illərdən bəri gələn dərdindən, yaralarından, qubarlarından danışır. Yaralar alsan da əzəmətlə, vüqarla dayanmısan. Dağlıq Qarabağı öz bağrında görməyin həsrətindəsən. İndi bizim daha böyük, daha güclü ordumuz var. İndi bizim ən müasir silahlarımız var. Vətənə bağlı igid əsgərlərimiz var: ölümdən qorxmayan, daha qətiyyətli, səni sevən əsgərlərin.

Sənin gözəlliyin dillər əzbəridir. Qısqananların da az deyil. Füsunkar təbiətin xəstələrə məlhəm, bulaqların susayanlara dərmandı. Tarixi abidələrin, qədim qalaların şanlı keçmişindən xəbər verir. Həm də qonaqpərvərsən. Hər il sənə üz tutan turistlərə qucaq açırsan. O qədər qonaqpərvərsən ki, onlar özlərini Vətənlərindəki kimi hiss edirlər. Öz keçmişinlə insanları, xalqları, millətləri heyran qoymusan.

Hər birimiz bu gözəlliyi duyuruq, yaşadırıq. Əsgərlərimiz sənin xidmətindədir. Sinələrini sənə sipər edib, övladlıq borclarını yerinə yetirirlər. Mənfur düşmənin ayaqları bizim müqəddəs torpaqlarımızdan təmizlənməsi üçün gecə-gündüz döyüş növbətçiliyi aparırlar.

Ey Ana Vətən, səni sevən övladların, ömrünü sənin üçün yaşayan əsgərlərin var. Sən qalib gələcəksən!

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Müdafiə naziri "Beynəlxalq Ordu Oyunları-2017" yarışlarının bağlanış mərasimində iştirak edib





(Əvvəli 1-ci səhifədə)

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqu və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimov Beynəlxalq Ordu Oyunları çərçivəsində yaradılan "Dostluq Evi"nə gəliblər.

Burada onlar Müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə görüşərək, birlikdə iştirakçı dövlətlərin mədəniyyət nümunələri nümayiş etdirilən sərginin Azərbaycana aid bölməsində ölkəmizin tarixi, mədəniyyəti, adət-ənənələri, məişətinə aid eksponatlarla yaxından tanış olublar.

"Beynəlxalq Ordu Oyunları-2017" yarışlarının təntənəli bağlanış mərasimi bayram konserti ilə sona çatıb.

Qeyd edək ki, hərbçilərin beynəlxalq yarışlarında Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri "Dəniz kuboku", "Tank biatlonu", "Səhra mətbəxi", "Snayper həddi" və "Artilleriya atəşinin ustaları" müsabiqələrində ölkəmizi yüksək səviyyədə təmsil ediblər.





# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

15 avqust 2017-ci il.

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 128 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Ayqepar, Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Hacıalılı, Ağdam, Koxanəbi kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli və Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Rusiyanın və İranın hərbi gəmiləri Bakı limanını tərk edib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Dəniz kuboku-2017" beynəlxalq yarışlarında iştirak etmək üçün iyulun 23-də Azərbaycana gələn Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının "Qrad Sviyajsk" kiçik raket və "SB-45" xilasetmə yedək gəmiləri avqustun 12-də Bakı limanını tərk edib.

"Dəniz kuboku-2017" beynəlxalq yarışlarında iştirak etmək üçün iyulun 22-də Azərbaycana gələn İran İslam Respublikası Hərbi Dəniz Qüvvələrinin "Cövşən" və "Peykan" raket katerləri avqustun 13-də Bakı limanını tərk edib.

# Kursantlar ali hərbi təhsil üçün yola salınıb



*Hərb işinə verilən önəmin nəticəsidir ki, 19 il əvvəl 56 kursantla fəaliyyətə başlayan Heydər Əliyev adına Hərbi Liseydə bu gün yüzlərlə kursant təhsil alır. 2017-ci ildə Liseyi müvəffəqiyyətlə bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunan məzunların yola salınma mərasimi keçirilib.*

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev və tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzüblər. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikası Müdafiə nazirinin müavini-Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev, Heydər Əliyev adına Hərbi Liseyin rəisi, general-mayor Elman Orucov, valideynlərdən Fəranə Əbilova və Kəmaləddin Mehbalıyev çıxış edərək gələcəyin zabitlərinə uğurlar arzulayıblar.

Sonra tribunanın önündən təntənəli keçid olub. Gənclər ali hərbi təhsil almaq üçün Bakı şəhərinə yola salınıblar.

**Leytenant
Nəriman NƏCƏFOV**

# "Güclü nə ola bilər sadə dost sözü qədər..."

## "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının bağlanış mərasimindən qeydlər

*"Dəniz Kuboku-2017" təkcə hərbi əməkdaşlıq və yarış deyil, yarış formatında qarşılıqlı ehtiramın təntənəsidi...*



Xəzər dostluq dənizidi. Bu dənizin mavi suları onun sahillərində yaşayanları duruluğa, qarşılıqlı anlaşmaya, qarşılıqlı ünsiyyətə, sevgiyə, ehtirama, məhəbbətə səsləyir...

Yayın bürküsü hiss edilmir. Təbiətin sərtliyi yumşalıb, ağacların yarpaqlarını titrədən meh əsir. On dörd gün əvvəli - "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının açılış mərasimini xatırlayıram. Onda da meh əsirdi. Onda da xəzri Xəzərin sahilinə tələsənlərin sırasını sıxlaşdırırdı. Tədbirin ssenari müəllifi və quruluşçu rejissoru onda da Əməkdar İncəsənət Xadimi Abdulla Qurbani idi. Hardan biləydik ki, dörd dövlətin hərbi dənizçilərinin iştirakı ilə keçiriləcək yarışın açılış tədbirinə 14-15 min il bundan əvvəl Xəzərin sularının şıltaqlığına alışmış qamış qayıq gətiriləcək - Qobustan qayaüstü rəsmlərində gördüyümüz Günəş təsvirli qayığın eynini görəcəyik. Bir daha xatırlanacaq, xatırladılacaqdı ki, bu yarış hələ naviqasiya anlayışı olmadığı dövrdə belə nəhəng qayıq icad etməyə, Xəzər kimi "dəymədüşər" bir dənizi ram etməyə qadir olan bir məmləkətdə keçirilir. Bu qayıq min illərin o üzündə Xəzərin hakimi-mütləqi olan bir xalqın Qobustan qayaüstü rəsmlərinin timsalında qədim, çox qədim mədəniyyətə malik olduğunu, bugünkü nəhəng polad gəmilərin başlanğıcını hardan götürdüyünü də xatırladacaqdı...



Xalqın dünənli-bugünlü-sabahlı tarixi yaddaşlara həm də belə tədbirlərlə, belə tədbirlərdə belə rəmzlərlə yazılır. Belə tarix Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla açılış mərasimində olduğu kimi, bağlanış mərasimində də yazılacaqdı...

Açılış mərasimində rəmzlərlə mətləblər aşılanmışdı, tədbirin mahiyyəti kəlmə-kəlmə dərk olunmuşdu. tədbirdə oxunan mahnılar, ifa edilən rəqslər xalqın milli ruhunun yaşarılığını bir daha təsdiqləmişdi. Hamı bağlanış mərasiminin bu təsdiqin davamı olacağına inamın cazibəsindədi...

Eyni ovqatı - rəmzlərin qüdrətini, arzuladığımız kəlmələrin şirinliyini bağlanış mərasimində də gözləyirdik...

Bağlanış mərasimində bir kövrəklik duyulur. Bu kövrəklikdə minnətdarlıq hiss olunur. Bu minnətdarlıq zamanın on dörd gününün təəsüratlarıdı; Rusiyanın, Qazaxıstanın, İranın hərbçi dənizçiləri bu günlərin könül xoşluğunu heç zaman unutmayacaq. Azərbaycanın ərazi sularında keçirilən bu yarış sülhə, əmin-amanlığa, qarşılıqlı anlaşmaya sədaqət yarışıdı...

İştirakçı dövlətlərin dövlət bayraqları əsgəri yerişlə salona gətirilir. Bu, dövlət bayrağına (bayraqlarına) ehtiramdı. Bu tədbirdə görüntülər də, görüntülərin aşıladığı mahiyyət də təsdiqləyir ki, Xəzərin həm sahiliylə, həm də dövlətlərarası sərhəddi var, ünsiyyətin, qarşılıqlı ehtiramın sərhəddi yoxdu. Bu sərhədsiz ünsiyyətə görə, bu sərhədsiz ehtirama görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, Xəzərin təhlükəsizliyini birlikdə təmin etməliyik və təmin edirik də.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev iştirakçılara Moskvada - III Beynəlxalq Ordu Oyunlarının bağlanış mərasimində iştirak edən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini çatdırır...

Açılış mərasimində qamış qayığın çatdırdığı mətləbi bağlanış mərasimində Dədə Qorqud obrazı çatdırır. On beş min il əvvəlin tarixi də bəşəriliyin bəşiyini nişan verirdi, min üç yüz il əvvəlin tarixi bəşəriliyin necə yaşadıldığını, necə yaşadılmalı olduğunu xatırladır; bir yarış formatında belə bir ideyanın işığını görür iştirakçılar!

"Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının təntənəsinə həsr olunmuş mahnının müşayiəti ilə kubok meydana gətirilir. Hələ kimsə bu kubokun hansı komandaya - Rusiyayamı, Azərbaycanamı veriləcəyini bilmir. Bu şirin narahatlığı hamı yaşayır. Hələ aparıcıların bir təqdimatıyla mətləblər çözüləcək, kəlamlar səslənəcək - min illərin o üzündən tarix danışacaq, min illərin tarixindən danışılacaq, öyüdlər səslənəcək; Dədə Qorqud danışacaq, Dədə kəlmələri dinləniləcək.

Nə deyir Dədə Qorqud? - "...həmişə ürəyinizin üstündə uşaq şəkli gəzdirin. Uşaqlara sevgi, məhəbbət bəsləyin qəlbinizdə. Düz bir ay öncə Azərbaycanda dinc əhalinin atəşə tutulması nəticəsində həlak olan iki yaşlı məsum körpənin - Zəhranın fəryadı ruhumu canımdan alıb. Hələ də özümə gələ bilmirəm. O günahsız körpənin günahı nə idi? Gəlin terrora, qırğına, işğala, təcavüzə birlikdə yox deyək! Həyat gözəldi, dünya gözəldi, dəniz gözəldi, gələcəyimiz olan uşaqlar onlardan da gözəldi. Gəlin həyatımızı qoruyaq, gəlin dünyamızı qoruyaq, gəlin dənizi qoruyaq, gəlin gələcəyimiz olan körpələri qoruyaq!.."...

Dinşəyənlər Xəzərin laciverd dalğalarının pıçıltısından da bu mətləbləri duya bilir...

Təbillərin gumbur-gumbur harayı tarixi uyğudan oyatmaq qüdrətindədi...

Bu anlarda davulların deyil, Qobustanda əbədiləşmiş qavaldaşın ahəngini eşidirəm. Hamı da mənim kimi. 14-15 min il bundan əvvəl dinlənilən kimi dinləyirəm - heyrətlə, məhəbbətlə dinləyirəm. Həmin ahəng yenə ruhumun ruhuna dönməkdədi. Bir azdan ətrafında qələbəlik yaradacaq, hamını bir ocaq başına toplayacaq...

"Azərbaycan süitası" Azərbaycanın tarixi haqqında uvertüra kimi səslənir. Bu, Abdulla Qurbaninin yozumunda "Varıq, var olacağıq!" qənaətidi bəlkə? Bəlkə zamanında tarixin belinə qurşanmış qılıncın heç zaman kəsərdən düşməyəcəyinə inamın təntənəsidi? Bəlkə "Çağdaş sivilizasiya məhz Qobustandan başlayır" ehtimalıdı? Hər nədirsə, əzəmətlə səslənən süita heyrətlə dinlənilir. Bu heyrəti qamış qayıqla başlayan heyrətin davamı bilirəm...

İgidlər hasarlanaraq qala yaradır. Zirvədə Azərbaycan bayrağı dalğalanır. Bu, Lələtəpədə, Bayraqtəpədə dalğalanan, yaxın vaxtlarda Şuşada, Xankəndidə, işğaldan azad edəcəyimiz bütün torpaqlarda dalğalanacaq bayrağımızın rəmzidi...

Kuzə ilə rəqsdə də bir simvolika var: rəqsin plastikası ilə ifadə edilən mətləb "Kitabi - Dədə Qorqud"dan gəlir: "şırıl-şırıl qayalardan axan gurrah sular ağacları yerindən oynatma gücündə olsa da kuzə-kuzə dostun yoluna çilənir. Bu, rejissura tapıntısıdı, bədii təfəkkürün qüdrətidi...

İlhamlı rus şairi Sergey Yesenin Bakını sevib. Bu sevgini şeirlərə çevirib... "Şahanə, mənim Şahanəm!" serenadası nə qədər poetik, nə qədər həzin olsa da "Əlvida, Bakı" şeiri istər bədii dəyəri, istərsə də fikir yükü ilə oxuyanı heyrətləndirir. Ssenari müəllifi bu şeirin məhz həmin gün bu tədbirdə səslənməsini zəruri bilib. Bunun belə bir möhtəşəm tədbir üçün zərurət olduğunu deyə bilərik; Bakını görənlərin ayrılıq ərəfəsində "Əlvida, Bakı" deməsini eşitmək necə də xoşdu! Sergey Yeseninin "Əlvida, Bakı" şeiri səslənir. Avropa liseyinin ikinci sinif şagirdi Selcan ifa edir şeiri. Rus dilində ifa edir. Şirin səsiylə iştirakçıları ovsunlayır. O qədər məharətlə, o qədər məlahətlə ifa edir ki, Rusiya Müdafiə nazirinin müavini general-leytenant Aleksandr Fomin səhnəyə qalxaraq onu bağrına basır, nəsə deyir. Nə deyirsə, eşitmirik. "Sağ ol" - deyir yəqin. "Rus şairinin sevgilərlə yazdığı şeiri bunca sevgilərlə təqdim etdiyinə görə sağ ol!" - deyir, şübhəsiz. Eşitməyə-eşitməyə eşitdiyimiz bu xoş kəlmələr ürəklərimizi tellləndirir.



Selcan "Əlvida, Bakı" şeirini o qədər duyğusallıqla səsləndirir ki, onu yenidən tərcümə etməməyi günah hesab edirəm:

Bakı, əlvida, Bakı!  
Səni görəcəyəmmi,  
İndi mənim ruhumda  
bir səksəkə, bir qəhər.  
İndi əlimin altda  
gizildəyən qəlbimdə  
Güclü nə ola bilər  
sadə dost sözü qədər...

Azərbaycanın və Rusiyanın hərbi dənizçiləri birinci, İranın hərbi dənizçiləri ikinci, Qazaxıstanın hərbi dənizçiləri üçüncü yerə layiq görülür; Kubok ilk altı ay Azərbaycanda qalacaq!..

...Qonaqlar uğur üstədi. Uğurlayanlara baxırlar. Əlləri bayraq kimi dalğalanır. Mənə elə gəlir ki, hər biri kövrəkliklə Sergey Yeseninin yazdığı şeirin ilk misrasını pıçıldayır: Əlvida, Bakı! O misra "Səni yenə görəcəm!" qətiyyətiylə tamamlanır...

Xalqımızın milli adətləri özü boyda heyrətdi, hikmətdi, duyana bənzərsiz məhəbbətdi. Ssenari müəllifi bu heyrəti, bu hikməti, bu məhəbbəti tədbirlə məharətlə çulğalaşdırır. Min-min illərdi səfərə çıxanların arxasıyca su atılır - duruluq suyu, uğur suyu. Bu, səfəri uğurlamaqdı, "Uğur olsun!" - deməkdi. "Azərbaycana xoş niyyətlə gələnlər həmişə belə ehtiramla yola salınır" - deməkdi...

Aparıcıların könlündən süzülən, süzülə-süzülə sözə düzülən kəlmələr səslənincə - "Ölkənizə, xidmət yerinizə sağ-salamat qayıdın!" - "Dəniz Kuboku-2017"nin iştirakçılarının arxasınca su atılır...

"Dəniz Kuboku-2017" beynəlxalq yarışları başa çatır.

...Bu yarışların açılışında da, bağlanışında da təqdim edilən rəmzlər, deyilənlər xatırlatdı ki, neçə min illik tarixə malik olan Azərbaycan dünya sivilizasiyasına çox dəyərlər verib. Qobustan qayaüstü rəsmləri sivilizasiyanın bir mərhələsi, növbəti sivilizasiyalar prosesinin başlanğıcı olub...

Yarışlar bunların fonunda izlənildi. İştirakçılar bunları unutmayacaq...

Gəmilərin göyərtələrində dayanıb kövrəkliklə, kövrəklik qarışıq qürurla baxanlar ayrılıq anında

Bakı, əlvida, Bakı,  
Səndən ayrılmaq - çətin,  
Bakı, əlvida, Bakı!  
Gəldim, gördüm, vuruldum.  
Xəzər - dostluq dənizi,  
Dostluq dəniz kimidi,  
Ünvanı sənsən, Bakı,  
Belə bir məhəbbətin! -

deyəcək. Mütləq deyəcək!

**Rəşid HÜSEYNOV,**  
**əməkdar jurnalist**

AZƏRBAYCAN ORDUSU

# Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

*Avqustun 13-də Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Silahlı Qüvvələrin birliklərində, Əlahiddə Ümumqoşun Orduda, Hərbi Hava Qüvvələrində və Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrində təşkil edilmiş mərasimlərdə öncə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edilib. Sonra gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul ediblər.*

Andiçmə - Vətənə sədaqət andı...

Bu mərasimi gənc əsgərlər də gözləyir, onların valideynləri də. Bu günün sevincini valideynlər də yaşayır, gənc əsgərlər də. Əslində, andicmə mərasimi cəmiyyətin marağı ilə əhatələnir; hərbi and içənləri hər birimiz əzizimiz bilirik...

"N" hərbi hissəsində andiçmə mərasiminin özünəməxsus coşqu ilə başlayacağı, davam edəcəyi hiss olunur. Anaların narahat baxışlarında çırpınan anları da görürük, bu anların ləng ötüşməsinə gileyi də...

Polkovnik-leytenant Rasim Manafov gənc əsgərlərin Vətənə sədaqət andı içməsinin əhəmiyyətindən, bu tədbirin şəxsi heyətin mənəvi hazırlığında mühüm rol oynayacağından, onların Vətən sevgisini daha da artıracağından söz açaraq deyir ki, bu gün and içən əsgərlərin nümunəvi xidmət edəcəyinə, komandirlərin, zabitlərin əmrlərini, tapşırıqlarını böyük məsuliyyətlə yerinə yetirəcəyinə əminəm. Ona da əminəm ki, onların hər biri torpaqlarımızın işğaldan azad edilməsi üçün mərdliklə, qəhrəmanlıqla döyüşəcək.

Tədbir iştirakçılarına Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini çatdıran polkovnik Abdulla Qurbani qeyd edir ki, ötən il elə bu sıra meydanında hərbi and içənlərin sırasında bir gənc əsgər vardı - Çingiz Qurbanov. Altı ay sonra - dekabr ayının 29-da döyüşdə qəhrəmanlıqla həlak oldu, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi. Bu gün sizi təbrik edənlərin sırasında Çingiz Qurbanovun ruhu da var. Bunun sizin hərbi xidmətinizin qayəsi olacağına şübhə etmirəm. Sizin hərbi nizamnamələrin tələblərinə ciddi əməl edəcəyinizə inanıram. İnanıram ki, hər biriniz torpaqlarımızın işğaldan azad edilməsi amalıyla xidmət edəcəksiniz...

Əsgər ataları Uğur İbrahimov və Tufan Hüseynov da gənc əsgərləri hərbi and içmələri münasibətilə təbrik edirlər. Hər ikisi deyir: - Biz fəxr edirik, qürurlanırıq ki, oğlumuz Vətəni qoruyanların sırasındadı. İnanırıq ki, onlar nümunəvi xidməti ilə ata-analarına başucalığı gətirəcəklər...

Gənc əsgərlər adından Murad Abdullayev çıxış edir. Onun çıxışı duyğusallığıyla fərqlənir. Gənc əsgər ata-analara müraciətlə deyir ki, biz bu gündən Vətənin oğluyuq. Oğulluq borcumuzu hərbi andın tələbləriylə böyük məsuliyyətlə yerinə yetirəcəyik.

Andiçmə mərasimi təntənəli keçidlə başa çatdı. Gənc əsgərlərin mətin yerişi deyir ki, onlar hərbi andın tələbləri səviyyəsində xidmət edəcəklər.

* * *

Səhər tezdən "N" hərbi hissəsinin qarşısındayıq. Bu gün burada fərqli bir gün yaşanır, insanların gözlərində dəniz kimi sonsuz, ucsuz-bucaqsız sevinc-sevgi hiss olunur. Bu sevgi onların ürəyində olduğu qədər gözlərində də büruzə verir, adama elə gəlir ki, dənizin ləpələri, sahil və bura toplaşan insanların gizlədə bilmədiyi sevinc hissi həsəd aparılası üçlük təşkil edir, həm də əbədi ... Sanki bu müqəddəs üçlük dənizdə uzun səyahətdən sonra böyük bir həsrətlə qovuşub.

Müxtəlif bölgələrdən gələn insanlar - atalar, analar... dəniz dalğaları kimi aşıb-daşmaq, digər sahilə - sıra meydanında səf-səf düzülən, Vətən qarşısında "Hərbi and" içməyə hazır olan övladlarını təbrik etməyə can atırlar. Artıq onlar sevinc dolu göz yaşları ilə, fəxrlə bir evin, bir ailənin övladlığından çıxıb Vətənin mənafeyini, suverenliyini, ərazi bütövlüyünü qoruyacaq, bundan ötrü canını-qanını əsirgəməyəcək Vətən oğullarını süzürlər.



Həsrətə son qoyulur, təntənəli mərasim başlayır. Gənc əsgərlərin hərbi andı qəbul etmələri barədə hərbi hissə komandirinə məruzə edilir. Gənc əsgərlər Vətən qarşısında borclarını layiqincə yerinə yetirəcəklərinə and içirlər. Yanımda duran ağbirçək nənə pıçıltı ilə "Andına qurban olum, ay oğul" - deyir. Bu pıçıltıda bir ana tövsiyəsi var idi.

Polkovnik Qədir Nəsibov çıxışında bildirdi ki, müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Qarşısına qoyulan istənilən tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarında olan Silahlı Qüvvələrimiz müasir dünya orduları səviyyəsində formalaşıb. Tarix sübut edib ki, qüdrətli ordusu olan xalqın müstəqilliyi əbədidir.

Gənc əsgər Fariz Əhmədov çıxış edərək dedi ki, bu gün həyatımızda ən əlamətdar və məsuliyyətli günlərdən biridir. "Üzərimizə düşən məsuliyyəti dərk edərək əminliklə bildirmək istəyirəm ki, doğma Vətənimizə sədaqətlə xidmət edəcək, valideynlərimizin, komandirlərimizin etimadını doğruldacağıq".

Valideynlərdən Şəlifə Babayeva qeyd etdi ki, bu Vətən sənin, mənim, hər birimizin evidir. "Hər birimiz Vətənin müstəqilliyinin daimi, əbədi, dönməz olması yolunda səyimizi əsirgəmərik. Sizləri sıra meydanında gördükcə böyük şairimiz Məmməd Arazın ölməz misraları yadıma düşür: "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim". Bu gün Vətənin sizə oğul dediyi bir gündür."

- Bu gün qürurverici gündür, çünki oğullarımız Vətənini, xalqını qoruyacağına and içdilər, - deyə aprel döyüşlərinin iştirakçısı olan polkovnik-leytenant Eldəniz Sadıqov çıxışına başladı. - Minlərlə oğul sizdən əvvəl bu müqəddəs formanı geyinib, hərbi andı içib, Vətənə xidmət edib. İndi içdiyiniz andı şərəflə, vicdanla həyata keçirmək üçün sizə fürsət verilib. Hamınıza bu yolda uğurlar arzulayıram.



Zabit bildirdi ki, aprel döyüşləri zamanı hər kəs qətiyyətlə düşmənin üzərinə gedirdi. "İllər uzunu biz bu günü gözləmişdik. "Döyüşə gedəndə inanırdıq ki, güvənc yerimiz olan dövlətimiz, xalqımız ailəmizin, övladlarımızın yanındadı. Qələbə sevincli döyüşlərin iştirakçısı kimi tövsiyə edirəm ki, silahı, texnikanı, hərbin sirlərini dərindən öyrənin və hər an döyüşə hazır olun!".

Mərasim şəxsi heyətin tribunanın qarşısından nizami keçidi ilə başa çatdı. Sonra valideynlər əsgər yataqxanasında, hamam-camaşırxana kompleksində və əsgər yeməkxanasında yaradılan şəraitlə yaxından tanış oldular.

Bərdə rayonundan tədbirə qatılan əsgər anası İlhamə Yusifova bu əlamətdar günlə bağlı təəssüratlarını bölüşərək bildirdi ki, belə oğulları olan ana özü döyüş haqda fikirləşmir, düşmənə qənim kəsilə bilən qəhrəman Vətən oğulları böyüdür."

Müharibə veteranı əsgər atası Ağasəf Kazımov söhbətində qeyd etdi ki, müharibə veteranlarının keçdiyi döyüş yolunun gənclər arasında təbliğ olunması onların vətənpərvər ruhda böyüməsi baxımından əhəmiyyətlidir. "Hərbi xidmətin gənclərin həyatında oynadığı rol çox böyükdür. Gənclər dərk etməlidir ki, hərbi xidmət hər bir vətəndaşın borcudur. Fəxr edirəm ki, oğlum Orxan Kərimov da əsgər yoldaşları ilə Vətənə sədaqət andı içdi".

Valideynlərdən Dövlət Mehdiyev, Əsgərağa Mirişov, Rasim Səmədov və başqaları da gənc əsgərlərimizə Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət etməyi, Vətən uğrunda döyüşlərə həmişə hazır olmağı tövsiyə etdilər və ölkə rəhbərliyinə əsgərlər üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildirdilər.

* * *

"N" hərbi hissəsində gənc əsgərlərin hərbi andiçmə gününə həsr edilmiş təntənəli mərasimdə gənc əsgərlərin valideynləri, yaxınları, rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.



Gənc əsgərlər Azərbaycan Silahlı Qüvvələri sıralarına daxil olaraq Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacaqlarına and içdilər. Hərbi and hər bir əsgər üçün Vətən qarşısında dönməz sədaqətin ifadəsidir, pozulmaz qanundur. Qanunda qeyd edilir ki, hətta ölüm təhlükəsi belə Azərbaycan əsgərini içdiyi andı pozmağa məcbur edə bilməz. Bir əli əsgər yoldaşının çiynində, bir əli silahda Vətənə sədaqət andı içən övladına baxıb qürurlanan ataların, duyğulanan anaların da ən unudulmaz günüdür bu gün.

(Ardı 5-ci səhifədə

# Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

**(Əvvəli 4-cü səhifədə)**

Tədbiri giriş sözü ilə açan polkovnik Qurban Qurbanov əlamətdar gün münasibətilə gənc əsgərlərə və onların valideynlərinə xoş arzularını bildirdi. Həmçinin valideynlərə söz verdi ki, övladlarını bacarıqlı əsgər, cəmiyyətimizə layiqli vətəndaş kimi böyütmək üçün əllərindən gələni edəcəklər.

Sonra polkovnik Mehman Kərimov çıxış edərək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev sözlərini xatırlatdı: "Orduda xidmət etmək Azərbaycanın hər bir vətəndaşının şərəfli borcudur. Müstəqil Azərbaycan Respublikasının Milli Ordusunda xidmət etmək hər bir azərbaycanlı üçün böyük iftixardır. Fəxr edə bilərsiniz. Fəxr etməlisiniz ki, xalqımız sizə bu şərəfli vəzifəni etibar edibdir".



Polkovnik İlqar Lətifov hərbi andı qəbul etmiş əsgərləri və yaxınlarını əlamətdar gün münasibətilə təbrik etdi. Ordumuzun yüksək döyüş hazırlığından söz açaraq əsgərlərə məsuliyyətli olmağı tövsiyə etdi.

Gənc əsgərlər adından Binnət Həbibov bu şərəfli gün münasibəti ilə silahdaşlarını və bütün əsgər valideynlərini təbrik etdi.

- "Mən Azərbaycan Respublikasının vətəndaşı, Azərbaycan Silahlı Qüvvələrinə daxil olarkən, Vətənim Azərbaycana və onun xalqına sadiq olacağıma and içirəm" sözlərini söyləyərkən keçirdiyim həyəcan və sevinc hissini heç vaxt unutmaram. Bir gənc üçün bundan sevincli gün yoxdur. Əsgər olmağın ən böyük sevinci də ondadır ki, Azərbaycan xalqının güvənci, düşmənin isə göz dağısan. Torpaqlarımızın bir qisminin işğal altında olduğu bir vaxtda, bacarıqlı əsgər kimi formalaşmaq üçün əlimizdən gələni edəcəyik. Torpaqlarımıza göz dikən işğalçıları məhv etməyə hər an hazır olacağımıza, yurdumuzun hər qarışı uğrunda canımız bahasına döyüşə atılacağımıza söz veririk.

Əsgər atası Didar Əhmədov bildirdi ki, Vətənə, xalqa məhəbbət və sədaqət hər bir azərbaycanlının mənəvi dünyasına xas olan ən böyük xüsusiyyət və ən güclü hissdir. "Övladımın əsgər olmasından iftixar hissi duyuram. Bir ata kimi övladıma və onun timsalında hər bir əsgərə deyirəm ki, Vətən, torpaq yolunda canınızı və qanınızı əsirgəsəniz ananızın südü haram, atanızın çəkdiyi əziyyət dəyərsiz olar. Unutmayın ki, bir əsgər şəhid olar, onlarla əsgər doğulub, böyüyüb onun qisasını alar. Lakin Vətənimiz olmasa hamımız məhv olarıq".

Tədbirdən sonra valideynlər övladları ilə görüşüb, hərbi hissənin sosial şəraiti ilə yaxından tanış oldular.

* * *

Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlərin hərbi andiçmə mərasimi qürurverici məqamları ilə yadda qaldı.

Mərasimdə çıxış edənlər gənc əsgərlərə xitabən bildirdilər ki, Azərbaycan əsgərinin ən müqəddəs vəzifəsi intizamlı Vətən müdafiəçisi olmaq, Vətənə sədaqətlə xidmət etmək və işğal altındakı torpaqlarımızı düşməndən azad etməkdir. Ona görə də hər kəs öz üzərinə düşən vəzifələri şüurlu olaraq yerinə yetirməli, silah və texnikanın sirlərinə dərindən yiyələnməli, fiziki və mənəvi-psixoloji cəhətdən hazırlıqlı olmalıdır.

Ordumuzun istifadəsində ən müasir silah və texnikalar mövcuddur. Bunun üçün çalışmalısınız ki, komandirləriniz tərəfindən sizə öyrədilənləri, silah və texnikanın sirlərini dərindən mənimsəyəsiniz."

Qürur və intizamla tribunanın önündən keçən əsgərlərin valideynləri övladlarının Azərbaycan əsgəri adı ilə fəxr edirdilər. Təbii ki, hər bir valideynin fəxr və qürurunu ikiqat edən övladlarının şərəf və məsuliyyətlə xidmət edərək onlara başucalığı gətirməsidir. Ona görə də bu gün hər bir vətəndaşımız Azərbaycan əsgərinə inanır və ona böyük ümidlə baxır. Çünki, gündən-günə düşmənin qorxulu kabusuna çevrilən Silahlı Qüvvələrimiz ən çətin tapşırıqların öhdəsindən layiqincə gəlməyə hazır və qadirdir.

* * *



Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsindəyik. Hərbi hissənin nəzarət buraxılış məntəqəsinin qarşısında respublikamızın müxtəlif bölgələrindən gələn, bu günü həsrətlə gözləyən valideynlər, veteranlar və ictimaiyyət nümayəndələri toplaşmışdı. Duyğulu anlar yaşanır. Səhərin sərin mehi, dənizin sakit dalğaları insanların ruhunu sakitləşdirsə də övladlarını görmək istəyini yumşalda bilmirdi. Onların səbirsizliklə gözlədiyi an gəlib çatır. Yolboyu yanaşı irəlilədiyim ananın dilindən "Oğlumun belə bir hərbi hissədə qulluq etməsi arzum idi" sözlərini eşitdim. Bütün valideynlərin gözlərində də həmin ifadələri oxumaq çətin deyildi.

Mərasimə gələnlər sıra meydanının ətrafında onlar üçün ayrılmış ərazidə yerlərini tutdular. Gənc matroslar hərbi andı qəbul etdikləri anı gözləyirdilər.

Polkovnik Saleh Kələntərov bütün şəxsi heyəti salamlayaraq gənc matrosları şəxsi heyətin sıralarına qatılmaları münasibəti ilə təbrik etdi. O, çıxışında bildirdi ki, Ümumilli lider Heydər Əliyevin həyata keçirdiyi böyük quruculuq işləri, xalqımızın, Vətənimizin qarşısında əvəzsiz xidmətləri hər birimiz üçün örnəkdir. "Bu gün şəxsi heyətimiz ulu öndərin ideyalarını əsas tutaraq Vətən qarşısında borclarını ləyaqətlə yerinə yetirir. Hazırda dahi rəhbərin layiqli yetirməsi, Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən ordu quruculuğu siyasəti inamla davam etdirilir. Silahlı Qüvvələrimiz ən müasir silah, texnika və avadanlıqlarla təmin olunaraq dünyanın qabaqcıl orduları səviyyəsinə yüksəlib."

Gənc əsgər atası Həsən Musayev çıxış edərək dedi: "Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrimizə göstərdiyi diqqət və qayğını bu gün burada əyani şəkildə gördük. Əsgərlərimizdən Qələbə sevinci gözləyirik, Lələtəpədə, Bayraqtəpədə dalğalanan Azərbaycan bayrağının Şuşada, Kəlbəcərdə, Laçında... ucalmasını istəyirik. Bu qələbəni Azərbaycan xalqına sizlər bəxş edəcəksiniz. Ona görə də sizlərə xidmətinizdə uğurlar arzulayır, komandirlərin əmr və tapşırıqlarını düzgün yerinə yetirməyi tövsiyə edirəm."

Gənc əsgər Tural Ağalı çıxış edərək qeyd etdi ki, əsgər forması geyinməyi, əsgər olmağı çox arzulayırdım: "Bu gün arzuma çatdım. Əsgər həyatı mənalı bir həyatdır. İndi bizim üzərimizə hər bir vəzifəni namusla, vicdanla yerinə yetirmək öhdəliyi düşür. Amalımız, məqsədimiz işğal altında olan torpaqlarımızı azad etmək, sərhədlərimizi göz bəbəyimiz kimi qorumaqdır."

* * *

Gənc əsgərlərin andiçmə mərasiminə həsr olunmuş tədbir "N" hərbi hissəsində də rəsmi ritualların yerinə yetirilməsi ilə başlandı. Polkovnik-leytenant Aşur Mirzəyev zabit və əsgərlərlə salamlaşdı, əlamətdar gün münasibətilə onları təbrik etdi.



Əsgərlər nizami addımlarla sıra meydanında üzərinə üçrəngli bayraqlar sərilmiş və silahlar qoyulmuş stollara yaxınlaşırlar. Gənclərin gur səsindən əzəmət və məğrurluq duyulur. Valideynlər sevinclə baxışlarını övladlarına dikiblər.

Övladının andiçmə mərasimində iştirak edən valideynlərdən biri ilə görüşüb söhbət etdim. Əsgər anası Könül İsmayılova dedi ki, bu gün sevinc içindəyəm. "Oğlum Murad Niftəliyev də hərbi andı qəbul edən əsgərlərin sırasındadır. Ona baxdıqca qürur hissləri keçirirəm. İnanıram ki, oğlum içdiyi anda həmişə sadiq qalacaq".

Gənc əsgərlər hərbi andı qəbul etdikdən sonra onları təbrik etmək üçün çıxışlar başlandı. Polkovnik-leytenant Aşur Mirzəyev dedi:

- Əziz gənc əsgərlər! Bu gün siz həyatınızın ən əlamətdar günlərini yaşayırsınız. Bu gün siz Vətənə sədaqət andı içdiniz. Siz çox xoşbəxt gənclərsiniz ki, əsasını ümummillli liderimiz Heydər Əliyevin qoyduğu orduda xidmət edirsiniz.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində başladığı islahatlar bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordumuz gündən günə gücünü, qüdrətini artırır. İnanıram ki, siz bü gün içdiyiniz anda sadiq qalacaq, nümunəvi xidmətiniz, cəsarət və hünərinizlə qələbəmizə töhfə verəcəksiniz!

Sonra zabitlər Pərviz İbrahimov, Samir Səfərov, valideyn Vahid Məhərrəmov, Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının baş məsləhətçisi Mehman Novruzov, Ağcabədi rayon İcra Hakimiyyətinin nümayəndəsi Ceyhun Mamedov, Heydər Əliyev Mərkəzinin elmi işçisi Rafiz Bünyatov və başqaları çıxış edərək gənc əsgərləri təbrik etdilər, onlara uğurlar arzuladılar.

Gənc əsgərlər adından çıxış edən Anar Rəsulzadə dedi ki, biz içdiyimiz anda sadiq qalacaq, hərbi texnikanın və silahların sirlərini dərindən öyrənəcək, torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanacağıq.

Yenicə hərbi andı qəbul edən gənc əsgərlərdən Araz Məhərrəmli, Elnur Vəliyev, Soltan Heydərov və başqları da hərbi anda sadiq qalacaqlarını, yurdumuzun keşiyində həmişə ayıq-sayıq dayanacaqlarını bildirdilər.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Əsgərin döyüşə psixoloji hazırlığı.

**1. Əsgərin psixoloji hazırlığının məzmunu.**
**2. Döyüşə psixoloji hazırlığın əsas üsulları.**

*Əsgərin psixoloji hazırlığının məzmunu*

Əsgərin psixoloji hazırlığı: döyüşdə fəal, təşəbbüskar, fədakarcasına hərəkət etmək bacarığının qazanılmasını;

fiziki və psixoloji gərginliyə tab gətirməyi, qorxu hissi ilə mübarizə aparmağı;

döyüş tapşırıqlarını yerinə yetirmək üçün zəruri olan emosional - iradi keyfiyyətləri;

psixoloji dayanıqlığın formalaşdırılması üzrə fəaliyyətlər kompleksini təşkil edir.

Təcrübə göstərir ki, əsgər öz döyüş hazırlığını tələb olunan anda lazımi dərəcədə həmişə göstərə bilmir. Hələ dünən gündəlik, sakit xidməti şəraitdə yaxşı və əla yerinə yetirilən hərəkətlər bu günkü döyüşdə ya yarımçıq alınır və yaxud heç alınmır. Bu əsgərin psixoloji cəhətdən kifayət qədər hazırlıqlı olmadığının göstəricisidir. Əsgərin psixoloji hazırlığı müasir tələblərə cavab verməli və Silahlı Qüvvələrin döyüş hazırlığı və döyüş qabiliyyətinin yüksəldilməsinə yönəldilməlidir.

Döyüş əsgərin öz potensiallarını cəld göstərə bilməsi bacarığına çox sərt tələblər irəli sürür. Bunun dəyəri isə həmin əsgərin özünün və yaxud yoldaşlarının həyatı, döyüş tapşırığının yerinə yetirilməsi ilə ölçülür.

Əsgərin verilmiş tapşırığı bacardığı səviyyədə (döyüş ustalığını göstərməklə) yerinə yetirməsi daxili amillərdən - hər şeydən öncə insanın əqidəsindən, onun təhlükəli, gözlənilməz, qeyri-müəyyənlik və vaxt qıtlığı şəraitlərində səmərəli hərəkət etmək qabiliyyətindən, verilmiş məqamda əsgərin emosional vəziyyətindən və səhhətindən asılıdır.

Sadalanmış faktorların məcmusu "psixoloji hazırlıq" adlandırılır.

Əsgərin döyüşə psixoloji hazırlığı bölmənin döyüş fəaliyyətinə dərhal başlaya bilməsinin əsas tərkib hissələrindən biridir. Bu, birinci növbədə Vətəni, doğmaları və əzizlərinin taleyi barədə əsgərin məsuliyyət hissini, özünə, öz yoldaşlarına, silahına, döyüş texnikasına inamının olmasını; ikinci növbədə isə mübarizə aparmaq, özünü sınaqdan keçirmək, öz zəif cəhətlərini üstələmək, düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur.

Əsgərin döyüşə psixoloji hazırlığının əsas əlamətləri aşağıdakılardır:

tələskənlik və qapalılığın olmaması, hesablanmış və rəvan davranış;

əmr və tapşırıqların səhvsiz və dəqiq yerinə yetirilməsi;

normal fizioloji vəziyyət (nəbzin tezliyi, nəfəs alma, sifət rəngi və s.)

Döyüşə psixoloji hazırlığın 3 dərəcəsi təsnif olunur:
- aşağı
- orta
- yüksək.

Aşağı dərəcəli psixoloji hazırlığın təzahür cəhətləri: əsgər özünə inanmır, mübarizə aparmağa can atmır, qərarsızdır, həddindən artıq tələskən və yaxud qapalıdır, ən sadə tapşırıqların yerinə yetirilməsində səhvlər buraxır.

Orta dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri: özünə və yoldaşlarına inanır, lakin cəsarətli hərəkətləri, mübarizə aparmaq cəhdləri hələ kifayət qədər deyildir. Əsgər verilən tapşırıqların yerinə yetirilməsində kiçik səhvlərə yol verir, fizioloji vəziyyəti normaya yaxındır.

Yüksək səviyyəli psixoloji hazırlığı isə mübarizə aparmaq arzusu, şübhələrin yoxluğu, özünü sınamaq istəyi və düşmən üzərində qələbənin qazanılması fərqləndirir. Psixoloji hazırlığın bu səviyyəsində əsgər uzun müddət ola bilməz. İnsan fiziologiyasının və psixikasının mühafizə mexanizmləri işə düşür.

Buna görə də əsgər üçün çox vacibdir ki, döyüş qabağı özündə və yoldaşlarında orta səviyyəni saxlasın. Döyüşün gedişatında isə psixoloji hazırlığın yüksək səviyyəsi qoşulmalıdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta-asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər öyrəşir ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

Dərhal başlanacaq döyüş əməliyyatlarına psixoloji hazırlığın saxlanılması üçün psixoloji özünütənzimləmə üsullarından istifadə oluna bilər.

Belə ki, dəqiqədə 140-150 addımlıq gəzinti gümrah əhval-ruhiyyə yaradır. Addımın astadan sürətliyə və əksinə doğru növbə ilə dəyişməsi isə diqqətin toplanmasına və artmasına səbəb olur. Yuxu ilə mübarizə aparmaq üçün əl dərisinin çimdiklənməsi, başın adamın özü tərəfindən massaj edilməsi və insanın aktivliyini artıran digər hərəkətlər geniş tətbiq olunur. Yuxulama insanda yorğunluğun, psixi və fiziki taqətsizliyin səbəbi olduğuna görə döyüşə psixoloji hazırlığın daxili düşməni sayılır.

*Döyüşə psixoloji hazırlığın əsas üsulları*

Döyüşə psixoloji hazırlığın saxlanılması üçün özünütənzimləmənin əsas üsulları aşağıdakılardır:
- özünəinam və özünətəlqin,
- öz təxəyyülünü idarə etmə,
- nəfəs almanı və əzələləri tonusda saxlamaq.

Özünəinam - əsgərin hazırlığını yüksək səviyyədə saxlamağın vacibliyini özünə sübut etməsidir. Döyüş növbətçiliyini, qarovul xidmətini çəkən və yaxud digər döyüş tapşırığını yerinə yetirən əsgər onu yayındıran fikirlərin, istəklərin yaranması nəticəsində sayıqlığını itirməsinin necə dəhşətli hadisələr, nəticələr törədə biləcəyini aydın təsəvvürünə gətirməlidir. Bu yerdə Nizamnamələrin tələblərini, rəislərin xəbərdarlıqlarını, xidmətin ibrətamiz nümunələrini mütləq yada salmaq lazımdır.

Özünətəlqin - özünəinam kimi, əsgərin əsas təsir vasitəsi olaraq sözdən istifadə etməsilə şüurlu şəkildə əldə olunur. Özünətəlqin insanın özünə və imkanlarına olan inamın gücünə onun psixi vəziyyətini dəyişə bilər. Məsələn: gecə xidmət çəkən əsgər yuxuluqla oyaqlıq arasında olduğu üçün bəzi hallarda sanki tormozlanmış vəziyyətə düşür. Əsgərin psixikasının məhz bu vəziyyəti istənilən özünütəlqinə daha həssas olur. Ona görə də yuxulamağa və yaxud rahatlıq tapmağa olan ən kiçik cəhd belə yerindəcə dəf olunmalı və rədd edilməlidir. Əks təqdirdə şərait facia ilə nəticələnə bilər.

Sayıqlığın itirilməsi çox ağır nəticələrə səbəb olur. Buna görə də əsgərlərdə gümrahlığın və aktivliyin saxlanılması üçün hərbi psixoloqlar çox dəqiq və qısa özünü təlimat forması tövsiyə edirlər. Yuxusu gələn, taqətdən düşən, sayıqlığı itirən əsgər bu ifadələri tez-tez işlətməlidir:

"Mən diqqətimi toplayıram", "Mən sakitəm və özümə inanıram", "Mən öz davranışımı və vəziyyəti tam nəzarətdə saxlayıram".

Bu özünü təlimatlar ehtuyac duyulan vəziyyətin məxsusi modellərini təsvir edir. Əsgərin qabaqcadan hazırladığı sözlü düsturlar, dəfələrlə təkraretmə yolu ilə şüuraltına yerləşdirilir və yubatmadan onun vəziyyətini müəyyən etməyə başlayır.

Özünü təlqin edərkən bəzi qaydalara riayət etmək vacibdir:

1. Özüntəlqin düsturlarını 5-6 dəfə ürəyinizdə təkrar etməli, onun məzmununa diqqət yetirməli və ehtiyac duyulan vəziyyəti təsəvvür etmək lazımdır;

2. Sözlü düsturlar qısa, aydın olmalı və konkret şəraitdə onları yerinə yetirmə imkanları şübhə doğurmamalıdır. Burada heç bir özünü tənqidə yol verməmək olmaz. Yalnız öz qüvvələrinizə tam inam təxirəsalınmaz nəticələr verə bilir.

3. Sözlü düsturlar yalnız təsdiqedici formada işlənməli, yəni inkaredici ifadələrə yol verilməməlidir. Məsələn: "Mən yatmaq istəmirəm" özününtəlqini əks təsir verə bilər. Çünki istəyirəm əvəzinə deyilən istəmirəm ifadəsindəki "yi"-ni əvəzləyən "mi" şəkilçisi adətən şüuraltında nəzərə çarpmır. Bu cür hallarda yuxunu xatırlamaq ümumən olmaz. Əksinə demək lazımdır ki: "Mən gümrah və çalışqanam". Və yaxud "Mən yatmaq istəmirəm" ifadəsinin əvəzinə "Mən gümraham" ifadəsini beyinə yerləşdirmək lazımdır.

Təxəyyülün (fantaziyanın) idarə edilməsi isə özünütəlqinin sözlü düsturlarının təsirini əhəmiyyətli dərəcədə artıra bilir. Döyüş postunda təxəyyülünüzü işlətməklə, öz fəaliyyətinizin arzuolunan nəticəsinin obrazını yaratmaq mümkündür. Lazımdır ki, sözlü obrazların məzmununu emosiyalarında canlandırasan. Özünüzə "Mən gümraham" ifadəsini təlqin edərkən, səhər tezdən dan şehinin, təravətinin bədəninizi necə üşütməsini, əzələlərinizin necə gərilməsini təsəvvürünüzə gətirin. Siz o halı hiss etməyə çalışsanız, təsirini anındaca görəcəksiniz. Hərəkətin nümunəsini daha aydın təsəvvürünüzə gətirməklə, sizə özünüzü etalona (ideal döyüşçü, hərəkətlərin qüsursuz icrası) bənzətmək məsləhət görülür. Yəni özünüzü "ən sayıq döyüşçü" rolunda hiss etməyiniz üçün onun ideal hərəkətlərini təsəvvürünüzə gətirin və yamsılama prinsipinə uyğun təkrar edin. "Mən ən sərrast atıcıyam", "Mən ən sayıq kəşfiyyatçıyam" kimi özünütəlqinlər müvafiq idealları, nümunələri təsəvvürə gətirməklə əsgərin əsl atıcı, kəşfiyyatçı obrazına çevrilməsinə kömək edir. Öz təxəyyülünüzü idarə etməklə döyüş fəaliyyətinin bu və ya digər nəticələrini, postda mümkün olan müxtəlif vəziyyətlərin inkişafını daim beyində "hərlətmək" (üzərində fikirləşmək) olar.

Məsələn: "Əgər divarın o üzündə düşmən varsa" deməli, dönməmişdən qabaq divardan 2-3 metr aralanmalı və fikrimi toplamalıyam. Bu cür fəndlər döyüşdə əlverişsiz nəticələri (arzuolunmaz sonluqları) qabaqlamaqla gözlənilməz hallara hazır olmaq imkanları verir. Yaxşı olardı ki, qabaqcadan ekstremal şəraitlərdə mümkün hərəkətlərin planı qurulsun və beyninizdəki fikrən "icra edilsin".

Diqqətin idarə olunması təxəyyüllə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlu nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilir. Bu isə insan psixikasının daha bir sirridir. Əgər ona məhəl qoymarıqsa daha ağır nəticələr qazanarıq. Köhnə bir fəndi misal gətirək. Düşmən qarovulçunu, saatdarı yayındırmaq məqsədilə kənara bir daş atır və qəfildən onun gözləmədiyi yerdən üstünə tullanır. Belə olan hallarda əsgər üçün vacibdir ki, qəfildən güclü qıcıqlandırıcı (təhlükəli səs, ekranın sönməsi, posta yaxın insan və yaxud heyvan) peyda olduqda bütün diqqətini yalnız bu obyektə yönəli saxlamasın. Eyni vaxtda daha əsas ola biləcək digər istiqamətləri də müşahidə etsin. Bunun üçün isə qabaqcadan diqqətin ən təhlükəli istiqamətlərin hər birinə növbə ilə keçirilməsi planı tərtib olunmalıdır. Yalnız bu qaydalara riayət etməklə şərait üzərində nəzarəti saxlamaq mümkündür. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur.

Nəfəs almanın idarə olunması və əzələlərin tonusda saxlanılması sırf psixoloji fənd sayılmır. Lakin nəfəs almanın dərinliyi və tezliyi, bədən əzələlərinin gərilmə dərəcəsi əsgərin döyüş şəraitindəki psixi vəziyyətini əhəmiyyətli dərəcədə təyin etdirə bilir. Əsəb gərginliyinin götürülməsi üçün sakitləşdirici nəfəs alma fəndi təklif olunur. Dərindən nəfəsinizi alır, mümkün qədər nəfəsinizi saxlayıb və bacardığınız qədər asta sürətlə buraxırsınız. Psixi halınızı sakitləşdirmək üçün sizə bu fəndi 5-7 dəfə təkrar etmək lazımdır. Bundan sonra düşməni uzun müddətli müşahidə etmək üçün zehniniz açılacaq, iradəniz səfərbər olunacaq və əzələlərinizdə təzə qüvvə əmələ gələcəkdir.

Əzələ gərginliyi əsəb fəallığını xeyli dərəcədə şərtləndirir və deməli əsgərdə səfərbər olmaq hissinin və gümrahlığın yaranmasına səbəb olur. Əzələnin boşaldılması isə əksinə əsgərin psixikasına sakitləşdirici və tormozlandırıcı təsir göstərir. Ona görə də döyüşü gözləmə vaxtı bədən əzələlərini gərilmiş və elastik vəziyyətdə saxlamaq lazımdır. İsidilmiş aktiv əzələlər əsgərin döyüşə psixoloji hazırlığını yüksəldir.

Beləliklə döyüş təlimi əsgərə hərbi biliklər qazanmaq, özündə döyüş səriştəsi və bacarıqlarını formalaşdırmaq imkanı verir. Bu isə özünə inamın əsasıdır. Psixoloji hazırlıq təlimləri isə onda döyüş fəaliyyətlərinə psixoloji cəhətdən dərhal başlamaq qabiliyyəti yaradır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu iki yaşlı Zəhra Elnur qızının və onun nənəsinin 40 mərasimində iştirak edib



*Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndinin atəşə tutulması nəticəsində həlak olmuş iki yaşlı Zəhra Elnur qızının və onun nənəsinin 40 mərasimində iştirak edib.*

Erməni vandalizminin qurbanlarının ailə üzvlərinə Müdafiə Nazirliyi rəhbərliyinin bir daha başsağlığı çatdırılıb, onların qisasının alındığı və düşmənə layiqli cavab verildiyi bildirilib.

Mərasim iştirakçılarına Əməkdar İncəsənət Xadimi Abdulla Qurbaninin "Məsum Zəhra" elegiyası təqdim edilib (sözləri A.Qurbaniyə, bəstəsi isə Fərahim Qulubəyliyə aid olan elegiya Əməkdar Artist Cahangir Qurbanovun ifasında lentə alınıb).

Zabitlərdən Elşad Əbilov, Yaşar Səfərov, Seymur Həbibullayev, Əməkdar jurnalist, "Azərbaycan Ordusu" qəzetinin əməkdaşı Rəşid Faxralı və başqaları çıxış edərək Ermənistan silahlı bölmələrinin intensiv olaraq mövqelərimizi, eləcə də yaşayış məntəqələrini atəşə tutmasını pisləyib, dinc əhalinin həlak olmasının beynəlxalq qanunlara sığmadığını qeyd ediblər. Vurğulanıb ki, bütün bunlara baxmayaraq Azərbaycan tərəfi heç vaxt dinc əhaliyə atəş açmır, düşmən atəşləri vaxtında susdurulur, təxribatların qarşısı qətiyyətlə alınır.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dediyi "Ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi. Zəhranın və nənəsinin qanı yerdə qalmadı" sözləri xatırlanıb və xalqla ordunun Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqları bəyan edilib.

Erməni təcavüzü qurbanlarının ailə üzvləri, ağsaqqallar və ziyalılar Müdafiə naziri general-polkovnik Zakir Həsənovun faciədən dərhal sonra hadisə yerinə gəlməsini və zərər çəkənlərin ailə üzvləri ilə görüşməsini, ağır və üzüntülü günlərdə onlara ürək-dirək verməsini, dayaq olmasını yada salaraq, bu gün yenə də diqqət və qayğı ilə əhatə olunmalarını minnətdarlıqla bildiriblər.

A.Qurbani nəzərə çatdırıb ki, bu yaxınlarda rayon ictimaiyyətinin və hərbçilərin iştirakı ilə Müdafiə Nazirliyinin yeni layihələri: balaca Zəhranın xatirəsinə həsr olunmuş "Erməni təcavüzünün qurbanları: məsum körpələr" kitabı və Müdafiə Nazirliyi nəzdində Sənədli və Tədris Filmləri Kinostudiyasının istehsalı olan "Məsum Zəhra" qısametrajlı sənədli filminin təqdimatı keçiriləcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Məsum bir çöhrədə donan təbəssüm…



Əzizini itirənlərin qəlbi qana dönür. Unuda bilmir itirdiyi əzizini. Zaman getdikcə ağrı-acılar, sızıltılar yumşalır... 18 aylıq Zəhranın şəhidliyindən 40 gün keçir. Heç birimiz onu bir an da olsun unutmadıq, unutmayacağıq da...

O vaxtdan bəri daxilimdə sanki bir ümman təlatümdədir. Bir yerdə qərar tuta bilmirəm. Ana və balasını bir anın içində itirən gənc ananın ərşə dirənən naləsi…Üstünə ana südü çilənən bir məzar… Düşüncələrim, xəyallarım məni varımdan yox edir...

İyulun 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndi minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutuldu. Sahibə Quliyeva və 18 aylıq Zəhra Quliyeva həlak oldu...

Uşaqlar cənnətin ətrini dünyaya bəxş edən yeganə çiçəklərdir. Zəhra da özülə bərabər gətirmişdi cənnətin ətrini. Qucaqlarda da yola salındı cənnətə...

Quliyevlər ailəsinin xəyal və arzularının ümid tumurcuğu, ailə qalasının misilsiz sevinc qaynağıydı Zəhra. Dəcəlliklərini, şirin gülüşlərini, yenicə dil açmasını görən ata-ananın arzuları arzulara calanırdı. Sən dodağını azca büzəndə nənən ömründən pay verərdi. Düşmənin körpə nazını dodağında dondurduğunu görəndə də səmaya dikildi baxışları...

Gülüşün, atılıb-düşmələrin gözlərində, ətrin də burunlarında ömürlərinin sonunadək qalacaq valideynlərinin. Bir də məsum çöhrəndə donmuş təbəssüm... Dodaqları süd qoxulum, cansız bədəninə baxmaq nə qədər çətindir... Bir anın içində nəhəng dövlətləri belə dilə gətirdi sənin qana boyanmış nurlu çöhrən.

Ana laylasında doyunca uyumaq qismət olmadı sənə. İndi bütün analar layla deyir. İpək tellərini sığal çəkməkdən doymayan ananın saçlarını hörüb əlvan lentlər bağlayaraq məktəbə yola salmaq istəyini gözündə qoydu düşmən.



Neçə-neçə körpəyə qoyulan Zəhra adında yaşayacaqsan... Sənin şəhadətin Haqq savaşımıza yeni bir canlanma gətirdi. Qisasın alındı... Yarımçıq ömrünün davamını yaşayan Zəhralara nəsib olacaq Şuşada, Xocalıda, Laçında adlarının tarixini danışmaq.

Ötən ilin aprelində ordumuzun gücünü dadan düşmənin bu gün gücü yalnız günəşin qürub çağı nəvəsini əzizləyib sirli nağıllar danışan nənəyə çatır.

24 ildən sonra Cocuq Mərcanlıya qayıdışımızdan qorxan düşmən silahlarını dinc əhaliyə yönəltdi. Namərdlər xalqımızın zəfər müjdəsinə çevrilən bu Qayıdışın ilk addımını yasa çevirib xalqı qorxutmağa çalışdılar. Lakin, bu hadisə xalqımızda düşmənə qarşı daha böyük qəzəb, hiddət yaratdı. O mərminin qəlpələri günahsız nənəni və nəvəni həyatdan bivaxt aparsa da, ondan da iri qəlpələri erməni quldurlarının başına yağdırdı... Düşmən bilsin ki, belə qurbanlar xalqımızın, millətimizin Qələbə, yurda qayıdış əzmini zərrə qədər azalda bilməyəcək!..

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə İŞİD-in 14 üzvü tutulub



Türkiyənin Bingöl bölgəsində İŞİD terrorçu qruplaşmasına qarşı genişmiqyaslı antiterror əməliyyatı keçirilib.

Terrorçu fəaliyyətində şübhəli bilinən 10 nəfər saxlanılıb. Onlara məxsus avtomobildə çoxlu sayda silah və sursat, o cümlədən iki əl qumbarası götürülüb.

Qeyd edək ki, Türkiyənin təhlükəsizlik qüvvələri bu əməliyyatdan bir gün əvvəl də Bingöldə 4 İŞİD mənsubunu həbs edib.

## Argentinada dünyanın ən böyük dinozavrının qalıqları tapılıb



Tədqiqatçılar Argentinada dünyada yaşamış ən böyük dinozavrın qalıqlarının aşkarlandığını bəyan ediblər.

Dinozavrın uzunluğu 35 metr, çəkisi isə 76 tondur. Ölkənin cənubunda 2012-ci ildə qalıqları tapılan dinozavra "Patagotitan mayorum" adı verilib.

Qalıqları təhlil edən tədqiqatçı qrupu onun "Brontozarus" və "Diplodokus"ların qohumu olduğunu ehtimal edir.

## ABŞ-ın Havay ştatında telefondan istifadə edən piyadalar cərimələnəcəklər



ABŞ-ın Havay ştatının paytaxtı Honolulu şəhərində "Telefondan istifadə edən piyadaya pul cəriməsi" qanun layihəsi qəbul edilib. Bu, son zamanlar ağıllı telefonlara olan asılılığın aradan qaldırılması istiqamətində atılan addımlardan biridir.

Bununla da honolulular dünyada bir ilkə imza atıblar. Belə ki, Honoluluda yolu keçərkən telefondan istifadə edən piyadalar cərimələnəcəklər. Qəbul olunan yeni qanun layihəsinə görə, həmin piyadalara 75-99 ABŞ dolları məbləğində pul cəriməsi tətbiq ediləcək.

ABŞ Milli Təhlükəsizlik Şurasının yaydığı bəyanata əsasən, 2000-ci və 2011-ci illərdə 11 min 100-dən artıq adam yolu keçərkən yaralanıb. Yaralananların böyük bir qismi yolu telefondan istifadə edərək keçənlərdir.

## Qətər ilə Pakistan arasında yeni dəniz yolu açılıb



Qətər ilə Pakistan arasında ticarət məhsullarının daşınması üçün yeni dəniz yolu açılıb.

Bu addım iki ölkə arasında ticarət əlaqələrinin inkişafına şərait yaradacaq.

Qətər Limanları İdarəsinin məlumatına görə, dəniz ticarət səfərlərinin başlanıldığı bir vaxtda bu addımın atılması müsbət haldır. Bu çərçivədə 1200 konteyner yüklü gəmi artıq Qətərə yola çıxıb.

## Pakistanda baş verən partlayış nəticəsində ölənlərin sayı 15 nəfərə çatıb



Pakistanda baş verən partlayış nəticəsində ölənlərin sayı 15 nəfərə çatıb.

Kvetta şəhərində baş verən partlayışda 30-dan çox insan da yaralanıb. Bu barədə Bəlucistan əyalətinin daxili işlər naziri Sarfaraz Buqti məlumat verib. Onun sözlərinə görə, həlak olanlar arasında təhlükəsizlik qüvvələrinin əməkdaşları və mülki şəxslər də var.

Partlayışdan sonra şəhərdə fövqəladə vəziyyət elan edilib. Baş verən dəhşətli partlayışın səbəbi hələlik məlum deyil. Şahidlərin sözlərinə görə, partlayış təhlükəsizlik qüvvələrinin avtomobilinə qarşı törədilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Gəncə Qarnizonu Zabitlər Evinin Səyyar Təbliğat Dəstəsi əsgərlərlə görüş keçirib





Gəncə Qarnizonu Zabitlər Evinin Səyyar Təbliğat Dəstəsi cəbhə xəttində xidmət edən əsgərlərlə görüş keçirib.

Hərbi hissələrdə mədəni-kütləvi tədbirlərin təşkil edilməsində məqsəd ölkəmizin zəngin və qədim tarixinin öyrənilməsi, hərbi ənənələrin təbliğ olunması, hərbi qulluqçuların mənəvi-psixoloji ruhunun yüksəldilməsindən ibarətdir.

Görüşlər zamanı ön xətdə xidmət edən əsgərlərin xidməti vəziyyəti, məişət şəraiti ilə yaxından tanış olunub və əsgərlərlə geniş söhbətlər aparılıb.

Sonra şəxsi heyətlə hərb tarixi mövzusunda viktorina keçirilib. Musiqi dəqiqələri ilə davam edən görüş, sonda idman yarışı ilə yekunlaşıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Kursantlar Naxçıvandan xoş təəssüratlarla qayıdıblar

*Əlahiddə Ümumqoşun Orduda qoşun təcrübəsi keçən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları Naxçıvan Muxtar Respublikasının gəzməli-görməli, tarixi-mədəni yerlərində və muzeylərində olublar*

Kursantlar ilk olaraq ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edərək öz ehtiramlarını bildiriblər. Heydər Əliyev Muzeyini ziyarət edən zaman muzeyin direktoru Ramil Orucəliyev 1999-cu ildən fəaliyyət göstərən muzey haqqında ətraflı məlumat verib. Kursantlar ümummilli lider Heydər Əliyevin şəxsi arxivindən götürülən və fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən rəsmi sənədlər və fotolara maraqla baxıblar.

Sonra kursantlar Xan sarayı Dövlət Tarix Memarlıq, Mömünə Xatın, Açıq Səma Altında Muzey kompleksində olublar. Komplekslə tanışlıq zamanı qonaqlara ərazidəki tarixi abidələr ətraflı məlumat verilib.

Naxçıvanqala Tarix Memarlıq Muzey Kompleksinə ekskursiya zamanı iştirakçılara buranın tarixi və eksponatları haqqında ətraflı məlumat verilib. Bildirilib ki, orijinal tərtibatı ilə seçilən muzey 2010-cu ildə yenidən bərpa olunub.



Naxçıvan Dövlət Bayrağı Muzeyində olan zaman muzeyin bələdçisi burada nümayiş olunan Naxçıvanın müxtəlif tarixi dövrlərinə aid bayraqlar haqqında kursantlara ətraflı məlumat verib. Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, suvari dəstələrinə verilən bayraqlar, qədim pul nişanlarının fotoşəkilləri ziyarətçilərin marağına səbəb olub.

Əlahiddə Ümumqoşun Orduda qoşun təcrübəsi keçən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları qədim Naxçıvandan xoş təssüratla ayrılıblar.

**Leytenant Nəriman NƏCƏFOV,**
**foto əsgər Rasim İSMAYILLININDIR**

# "Ermənistan tərəfi öz cinayət əməlləri ilə Azərbaycan Ordusunu təxribata sövq edir"

*Ermənistan tərəfi Azərbaycan xalqını qıcıqlandırmaq istəyir və Azərbaycan Ordusunu onların özlərinin törətdiyi cinayət əməllərinə qarşı eyni tərzdə cavab verməyə sövq edir.*

Bu fikri AZƏRTAC-a ehtiyatda olan polkovnik Əzizağa Qənizadə Tovuz rayonunda Ermənistan silahlı qüvvələrinin dinc sakinləri atəşə tutmasına və azyaşlı Ramin Yusifova xəsarət yetirməsinə münasibət bildirərkən deyib.

Ə.Qənizadə bildirib ki, Ermənistan silahlı birləşmələri mütəmadi olaraq müxtəlif növ ağır və atıcı silahlardan istifadə edərək təmas xəttində yerləşən ərazilərdə dinc sakinləri, yaşayış məntəqələrini atəşə tutarlar. Bunun nəticəsində də əhali arasında ağır itkilər olur. Düşmənlə təmas xəttində yaşayış məntəqələrimizin yenidən atəş altına alınması nəticəsində bu il avqustun 8-də Tovuzun Qaralar kəndində daha bir azyaşlıya qarşı qəddarlıq törədilib və Ramin Yusifov yaralanıb: "Təəssüf ki, Ermənistan hərbçilərinin düşünülmüş şəkildə mülki əhaliyə qarşı həyata keçirdiyi bu addımlar beynəlxalq təşkilatlar tərəfindən biganəliklə qarşılanır. Odur ki, qısa müddət ərzində düşmən ikinci dəfədir azyaşlı uşaqların ölümünə və yaralanmasına səbəb olur. Erməni tərəfi bu addımlarla Azərbaycan xalqını qıcıqlandırmaq istəyir və Azərbaycan Ordusunu onların özlərinin törətdiyi cinayət əməllərinə qarşı eyni tərzdə cavab verməyə sövq edir.

Lakin Azərbaycan Ordusu heç vaxt dinc əhaliyə atəş açmayacaq və onların atdığı bu çirkin addımı təkrarlamayacaq. Amma Silahlı Qüvvələrimiz ermənilərin təxribatçı hərəkətlərinə qarşı daha ciddi cavab tədbirləri görəcək, düşmənin dinc əhaliyə atəş açan mövqelərinə zərbələr endirərək onları ağır itkilərə məruz qoyacaq".

*Hərbi ənənələr, yeniliklər*

# AW139 helikopteri

AqustaWestland AW139 - ikimotorlu, çoxməqsədli ingilis-alman istehsallı helikopterdir. Aqusta-Bell AB139 adı altında Aqusta və Bell Helicopters şirkəti tərəfindən hazırlanıb. Lakin Bell şirkəti layihədən çıxdığına görə onun adı dəyişdirilib.

Helikopter özündə yüksək texniki - uçuş xüsusiyyətlərinə malik, yeni nəsildən olan ikimühərrikli orta helikopteri təsvir edir. Onun ilk uçuşu 2001-ci ilin fevralında həyata keçirilib. Maşın öz çəki kateqoriyasına görə yeganə maşındır ki, buzlanmaya qarşı kompleks sistemlə təchiz edilib və kreyser sürətini saatda 306 kilometrə qədər artıra bilər. Təhlükəsizlik planında mövcud helikopter üçün elektromaqnit impulslardan, manealərdən və elektromaqnit sahələrindən mühafizə olunması üçün kompleks sistemlər nəzərdə tutulub. Helikopterin salonunun ölçüsü 8 kvadrat metr, yük bölməsinin sahəsi isə 3,4 kvadrat metr təşkil edir. Helikopterin konfiqurasiyasına görə standart olaraq bütün lazımi cihazlarla təchiz edilmiş 12 nəfərlik sərnişin üçün yer nəzərdə tutulub. Salona girib-çıxmaq üçün geniş, hərəkətli qapılar quraşdırılıb. Onun interyeri müxtəlifdir. (4 oturacaq və 2 dolab, 8 oturacaq və 1 dolab). Sifarişçilərin sorğularını təmin



etmək üçün əlavə oturacaqlarla, çoxfunksiyalı displeylə təchiz edilib. Maşının xüsusi cihazlanmasına hava nəqliyyatı ilə toqquşmasının qarşısını almaq üçün xəbərdarlıq sistemi, hava radarı, nəzarət və diaqnoz bort sistemi, monitorinq, yerə yaxınlaşma zamanı baş verəcək təhlükənin qarşısıcını almaq üçün xəbərdarlıq sistemi, qəza siqnal üzgəci, əlavə yanacaq çənləri, elektrik naqil pillələri, telefon, müxtəlif növ dolab və oturacaqlar əlavə edilib. Helikopterin maksimal uçuş çəkisi 6800 kq, maksimal sürəti saatda 310 kilometr, maksimal uçuş uzaqlığı 1250 kilometr, uçuş müddəti 5 saat 56 dəqiqə təşkil edir. Dinamik tavanı 6,069 m, maksimal uzunluğu 16,66 m, vintinin diametri 13,80 m, hündürlüyü isə 4,98 metr təşkil edir. Uçuş rejimində yol verilən maksimal gücü AEO-2x1,679 at gücündədir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Baş leytenant Hacıyev Mehran Yasin oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Baş leytenant Abbasov Rüfət Elman oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 346
Nüsxə 4600